QANUN № 09 (383), 2026, s. 48-59

Məmmədzadə Tural Ziya oğlu,
Milli Aviasiya Akademiyasının doktorantı
Ünvan: Bakı şəhəri, Mərdəkan pr., 30
E-mail: tm1412@georgetown.edu

UOT 342
DOI: https://doi.org/10.30546/2218-9130.009.2026.134

QANUNVERİCİLİK ORQANININ DEMOKRATİK İDARƏETMƏDƏ FUNKSİONAL BÜTÖVLÜYÜ: AZƏRBAYCAN RESPUBLİKASI TİMSALINDA

Açar sözlər: *hakimiyyətlərin bölünməsi, qanunvericilik orqanı, funksional bütövlük, parlament nəzarəti, demokratik idarəetmə, konstitusiya hüququ, Milli Məclis, müqayisəli hüquq.*

Ключевые слова: *разделение властей, законодательный орган, функциональная целостность, парламентский контроль, демократическое управление, конституционное право, Милли Меджлис, сравнительное право.*

Keywords: *separation of powers, legislature, functional integrity, parliamentary oversight, democratic governance, constitutional law, Milli Majlis, comparative law.*

Giriş

Hakimiyyətlərin bölünməsi prinsipi müasir konstitusiya hüququnun əsas institutlarından biri kimi qəbul edilir. Bu prinsip əksər demokratik dövlətlərin konstitusiyalarında təsbit olunur və qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında səlahiyyət bölgüsünün hüquqi əsasını təşkil edir. Bununla belə, hakimiyyətlərin bölünməsi prinsipinin formal şəkildə tanınması qanunvericilik orqanının demokratik idarəetmədə real və effektiv fəaliyyət göstərməsi üçün təkbaşına kifayət etmir. Qanunvericilik orqanının demokratik keyfiyyəti onun yalnız konstitusiyada ayrıca hakimiyyət qolu kimi göstərilməsi ilə deyil, həm də normayaratma, təmsilçilik, nəzarət və hesabatlılıq funksiyalarını faktiki olaraq həyata keçirmək imkanları ilə müəyyən olunur.

Bu baxımdan qanunvericilik orqanının funksional bütövlüyü məsələsi xüsusi elmi və praktiki əhəmiyyət daşıyır. Funksional bütövlük qanunvericilik hakimiyyətinin öz konstitusion təyinatına uyğun olaraq fəaliyyət göstərməsi, icra hakimiyyətindən institusional və prosedur baxımından asılı olmaması, ictimai maraqları təmsil etməsi və icra hakimiyyəti üzərində səmərəli nəzarət həyata keçirməsi kimi elementləri əhatə edir. Əgər parlamentin qanunyaratma funksiyası formal olaraq mövcud olsa da, onun nəzarət və hesabatlılıq imkanları zəifdirsə, bu halda hakimiyyətlərin bölünməsi prinsipi deklarativ xarakter daşıya və demokratik idarəetmənin real təminatına çevrilməyə bilər.

Məqalənin məqsədi qanunvericilik orqanının demokratik idarəetmədə funksional bütövlüyünü nəzəri və müqayisəli-hüquqi aspektlərdən təhlil etmək, bu anlayışın Azərbaycan Respublikasının

konstitusion modeli baxımından əhəmiyyətini müəyyənləşdirməkdir. Bu məqsədlə məqalədə hakimiyyətlərin bölünməsi prinsipinin klassik və normativ əsasları, qanunvericilik hakimiyyətinin funksional bütövlüyü haqqında müasir yanaşmalar, parlament nəzarətinin institusionallaşdırılması modelləri və Azərbaycan Respublikasında qanunvericilik prosesinin konstitusion arxitekturası araşdırılır.

Tədqiqatın metodoloji əsasını tarixi-hüquqi, müqayisəli-hüquqi, sistemli və institusional təhlil metodları təşkil edir. Məqalədə Almaniya və Birləşmiş Krallıq təcrübəsi, habelə bir sıra postsovet dövlətlərində parlament hakimiyyətinin inkişaf meyilləri Azərbaycan Respublikasının qanunvericilik modeli ilə müqayisəli şəkildə təhlil olunur. Bu müqayisə göstərməyə imkan verir ki, qanunvericilik orqanının demokratik idarəetmədə rolu yalnız onun formal səlahiyyətləri ilə deyil, həmin səlahiyyətlərin real institusional mexanizmlər vasitəsilə həyata keçirilməsi imkanları ilə qiymətləndirilməlidir.

Məqalənin strukturu tədqiqatın məqsədinə uyğun olaraq qurulmuşdur. Əvvəlcə qanunvericilik hakimiyyətinin klassik və normativ əsasları araşdırılır, daha sonra funksional bütövlük anlayışı müasir konstitusiya hüququ nəzəriyyəsi baxımından təhlil edilir. Növbəti hissələrdə parlament nəzarətinin Almaniya, Birləşmiş Krallıq və Azərbaycan modelləri müqayisə olunur, Azərbaycan Respublikasında qanunyaradıcılığı prosesinin konstitusion əsasları və postsovet məkanında parlament hakimiyyətinin müqayisəli xüsusiyyətləri nəzərdən keçirilir. Sonda qanunvericilik orqanının funksional bütövlüyünün gücləndirilməsi demokratik idarəetmənin keyfiyyətinin artırılması baxımından qiymətləndirilir.

1. Qanunvericilik hakimiyyətinin klassik və normativ əsasları

1.1. Lokk, Montesquieu və "The Federalist" yanaşması.

Müasir hakimiyyətlərin bölünməsi doktrinası əsas etibarilə belə bir nəzəri ideyaya söykənir: dövlət hakimiyyətinin bir əldə cəmləşməsi həmin hakimiyyətdən sui-istifadə riskini artırır. Con Lokk qanunvericilik hakimiyyətinin legitimliyini idarə olunanların razılığı ilə əlaqələndirmiş və qanunverici orqanın ona həvalə edilmiş ictimai məqsədlərdən kənara çıxa bilməyəcəyini əsaslandırmışdır [27]. Bu yanaşmada qanunvericilik hakimiyyəti mütləq və sərhədsiz hakimiyyət kimi deyil, xalqın etimadına əsaslanan, əvvəlcədən müəyyən edilmiş ümumi qanunlar çərçivəsində fəaliyyət göstərməli olan hakimiyyət qolu kimi izah olunur.

Şarl de Montesquieu bu ideyanı daha sistemli institusional çərçivəyə salaraq qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin ayrılması haqqında klassik doktrinanı formalaşdırmışdır [28]. Onun yanaşmasına görə, qanunvericilik və icra funksiyalarının eyni subyektdə birləşməsi siyasi azadlıq üçün təhlükə yaradır. Çünki qanunu qəbul edən orqan həmin qanunun icrasını da öz nəzarətində saxladıqda hüquqi məhdudiyyətlərin real təsiri zəifləyir və hakimiyyətin özbaşına həyata keçirilməsi riski artır.

Amerika konstitusiya ənənəsində bu prinsip daha konkret institusional məzmun qazanmışdır. Aleksandr Hamilton, Ceyms Medison və Con Cey "The Federalist" əsərində qanunvericilik, icra və məhkəmə funksiyalarının eyni əllərdə cəmləşməsini tiraniyanın əsas əlaməti kimi qiymətləndirmişlər [23]. Bu yanaşma hakimiyyətlərin bölünməsi prinsipinin yalnız nəzəri-fəlsəfi ideya olmadığını, həm də dövlət hakimiyyətinin real təşkilində qarşılıqlı nəzarət və balans mexanizmi kimi çıxış etdiyini göstərir.

1.2. Kelsen və Hart: normativ və institusional yanaşmalar.

Hakimiyyətlərin bölünməsi prinsipinə hüquqi normativizm baxımından yanaşan Hans Kelsen qanunvericilik, icra və məhkəmə funksiyalarının ayrılmasını yalnız siyasi sui-istifadənin qarşısını almaq vasitəsi kimi deyil, həm də hüquq sisteminin daxili məntiqindən irəli gələn struktur zərurət kimi izah etmişdir [25]. Kelsenin normalar iye-

rarxiyası nəzəriyyəsinə görə, hər bir aşağı pilləli norma öz hüquqi qüvvəsini daha yuxarı pilləli normadan alır. Bu baxımdan qanunvericilik orqanının normayaratma səlahiyyəti yalnız siyasi legitimlikdən deyil, ilk növbədə konstitusiya normasının ona verdiyi konkret səlahiyyətdən irəli gəlir.

Herbert Hart isə hüquqi qüvvəni yalnız hipotetik əsas norma ilə deyil, dövlət orqanlarının və hüquq tətbiq edən institutların faktiki qəbul etdiyi "tanınma qaydası" ilə əlaqələndirir [24]. Bu yanaşmaya görə, konstitusiyanın və qanunların məcburiliyi onların yalnız formal hüquqi iyerarxiyada tutduğu yerlə deyil, həm də dövlət institutları tərəfindən hüquqi meyar kimi qəbul edilməsi ilə müəyyən olunur. Konstitusiya dəyişiklikləri kontekstində bu yanaşma onu göstərir ki, dəyişiklik prosedurlarının məcburiliyi yalnız mətnin özündən deyil, həm də həmin prosedurların dövlət orqanları və hüquq praktikası tərəfindən tanınmasından irəli gəlir.

Beləliklə, Kelsenin normativ modeli və Hartın institusional yanaşması qanunvericilik hakimiyyətinin funksional bütövlüyünü fərqli, lakin tamamlayıcı istiqamətlərdən izah edir. Kelsen üçün qanunvericilik orqanının səlahiyyəti konstitusiya normasından irəli gələn hüquqi səlahiyyətləndirmə məsələsidir. Hart üçün isə bu səlahiyyətin real hüquqi qüvvəsi həmin normanın institusional praktikada tanınması və qəbul edilməsi ilə bağlıdır.

1.3. Qanunvericilik hakimiyyətinin konstitusion hüdudları

Qanunvericilik hakimiyyətinin konstitusion hüdudları məsələsi konstituent hakimiyyət nəzəriyyəsi ilə də sıx bağlıdır. Emmanuel-Joseph Sieyès tərəfindən irəli sürülən konstituent hakimiyyət anlayışı xalqın konstitusiya yaratmaq üçün ilkin və hüquqi baxımdan məhdudlaşdırılmamış hakimiyyətini ifadə edir [30]. Bunun əksinə olaraq, konstitusiya ilə yaradılmış dövlət orqanlarının səlahiyyətləri törəmə xarakter daşıyır və yalnız konstitusiyanın müəyyən etdiyi çərçivədə həyata keçirilə bilər.

Müasir müqayisəli konstitusiya nəzəriyyəsində bu fərq xüsusi əhəmiyyət daşıyır. Andrew Arato və Yaniv Roznai konstitusiyanı dəyişdirmə səlahiyyətinin ilkin konstituent hakimiyyətlə eyniləşdirilə bilməyəcəyini və onun konstitusiya ilə yaradılmış, hüquqi baxımdan məhdudlaşdırılmış səlahiyyət olduğunu əsaslandırırlar [14; 29]. Bu yanaşma qanunvericilik orqanının demokratik idarəetmədə rolunu daha dəqiq müəyyənləşdirməyə imkan verir: parlament xalq suverenliyini təmsil edən mühüm institut olsa da, onun səlahiyyətləri konstitusiya ilə müəyyən edilmiş hüquqi hüdudlar daxilində həyata keçirilir.

Bu baxımdan qanunvericilik hakimiyyətinin klassik və normativ əsasları birlikdə göstərir ki, parlamentin demokratik rolu yalnız qanun qəbul etmək imkanından ibarət deyil. Qanunvericilik orqanı həm xalqın iradəsini hüquqi formaya salmalı, həm icra hakimiyyəti üzərində nəzarət funksiyasını həyata keçirməli, həm də öz fəaliyyətini konstitusion səlahiyyət hüdudları daxilində qurmalıdır. Məhz bu üç element – legitimlik, nəzarət və hüquqi məhdudluq – qanunvericilik hakimiyyətinin funksional bütövlüyünün nəzəri əsasını təşkil edir.

2. Qarşılıqlı nəzarət və balansdan funksional bütövlüyə

2.1. Waldronun funksional bütövlük konsepsiyası və von Achenbachın icra dominantlığı yanaşması

Ceremi Waldron hakimiyyətlərin bölünməsi prinsipini yalnız hər bir hakimiyyət qolunun digərini məhdudlaşdırması kimi mənfi funksiya ilə izah etməyin kifayət etmədiyini əsaslandırır. Onun yanaşmasına görə, bu prinsip həm də qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin hər birinin öz daxili prosedur məntiqinə uyğun fəaliyyət göstərməsini tələb edir. Waldron bu xüsusiyyəti hakimiyyət qolunun "funksional

bütövlüyü" kimi izah edir [32]. Bu baxımdan qanunvericilik hakimiyyətinin funksional bütövlüyü parlamentin qanunyaratma prosesini öz institusional təyinatına uyğun, müstəqil və prosedur baxımından qorunan formada həyata keçirməsini nəzərdə tutur.

Waldronun fikrincə, icra və ya məhkəmə mülahizələri qanunların necə qəbul ediləcəyini müəyyən etməyə başladıqda, hüquqi tənzimetmənin demokratik ardıcıllığı pozulur. Bu ardıcıllıq nümayəndəli qanunvericilik, inzibati icra və məhkəmə müdafiəsi mərhələlərinin bir-birindən fərqlənməsinə əsaslanır [32; 33]. Buna görə də qanunvericilik hakimiyyətinin funksional bütövlüyü yalnız parlamentin mövcudluğu ilə deyil, onun qanunvericilik prosesində real qərarvermə imkanına malik olması ilə ölçülməlidir.

Yelena von Achenbach bu məsələyə daha institusional istiqamətdən yanaşaraq müasir konstitusiyalı demokratiyalarda parlamentlərin icra hakimiyyəti qarşısında zəifləməsi problemini vurğulayır. Onun yanaşmasına görə, parlamentlər formal olaraq demokratik idarəetmənin mərkəzi institutu hesab edilsə də, icra hakimiyyətinin normayaratma prosesinə təsir imkanlarının genişlənməsi qanunvericilik funksiyasının faktiki olaraq icra hakimiyyəti tərəfindən yönləndirilməsinə səbəb ola bilər [13]. Bu isə qanunvericilik orqanının funksional bütövlüyünü zəiflədən əsas amillərdən biridir.

2.2. Dahl və Habermas: demokratik iştirak və diskursiv legitimlik

Robert Dahlın poliarxiya nəzəriyyəsi qanunvericilik orqanının demokratik keyfiyyətini qiymətləndirmək üçün mühüm nəzəri əsas yaradır. Dahl nümayəndəli demokratiyanı sadəcə əksəriyyətin birbaşa hakimiyyəti kimi deyil, vətəndaşların siyasi üstünlükləri uğrunda institutlaşmış rəqabət sistemi kimi izah edir. Bu sistem azad və ədalətli seçkilər, ifadə azadlığı, alternativ informasiya mənbələri və vətəndaşların siyasi prosesdə iştirak imkanları kimi institutlara əsaslanır [20].

Bu yanaşma qanunvericilik orqanının demokratik idarəetmədə rolunu daha geniş qiymətləndirməyə imkan verir. Parlamentin demokratik keyfiyyəti yalnız onun seçkili orqan olması ilə məhdudlaşmır. O, həm də qanunvericilik dövrü ərzində ictimai maraqların ifadə olunmasına, müxtəlif siyasi mövqelərin təmsil edilməsinə və qəbul edilən qərarların cəmiyyətin real ehtiyaclarına cavab verməsinə şərait yaratmalıdır. Bu baxımdan qanunvericilik orqanının funksional bütövlüyü onun təmsilçilik və iştirakçılıq imkanları ilə sıx bağlıdır.

Yürgen Habermasın diskursiv legitimlik nəzəriyyəsi isə qanunvericilik prosesinə müzakirə və rasional kommunikasiya meyarını əlavə edir. Habermasa görə, hüquqi normaların legitimliyi yalnız onların səlahiyyətli orqan tərəfindən qəbul edilməsindən deyil, həmin normaların qərardan təsirlənən subyektlərin maraqlarını nəzərə alan rasional müzakirə prosedurları əsasında formalaşmasından irəli gəlir [22]. Bu yanaşma parlamenti sadəcə qanun qəbul edən texniki institut kimi deyil, ictimai müzakirənin hüquqi qərara çevrildiyi əsas demokratik məkan kimi qiymətləndirməyə imkan verir.

Müasir rəqəmsal ictimai sferanın parçalanması və siyasi kommunikasiyanın asimmetrik xarakter alması qanunvericilik orqanlarının bu funksiyasını daha da aktual edir. Simone Chambers-in yanaşmasına görə, rəqəmsal ictimai sferada yaranan kommunikasiya problemləri yalnız texnoloji deyil, həm də siyasi və institusional xarakter daşıyır [18]. Bu baxımdan parlamentin funksional bütövlüyü həm də ictimai müzakirəni hüquqi qərarvermə prosesinə səmərəli şəkildə bağlamaq qabiliyyəti ilə əlaqəlidir.

2.3. Beetham və Parlamentlərarası Birliyin demokratik parlament meyarları

Devid Beethamın Parlamentlərarası Birlik üçün hazırladığı yanaşma qanunvericilik orqanının demokratik keyfiyyətini qiymətləndirmək üçün daha praktik meyarlar təqdim edir. Bu ya-

naşmaya görə, demokratik parlament beş əsas meyara cavab verməlidir: təmsilçilik, şəffaflıq, əlçatanlıq, hesabatlılıq və effektivlik [16].

Bu meyarlar qanunvericilik hakimiyyətinin funksional bütövlüyünü yalnız nəzəri deyil, həm də institusional baxımdan qiymətləndirməyə imkan verir. Təmsilçilik parlamentin cəmiyyətin müxtəlif sosial və siyasi maraqlarını ifadə etməsini, şəffaflıq onun fəaliyyətinin ictimaiyyət üçün açıq olmasını, əlçatanlıq vətəndaşların qanunvericilik prosesinə münasibət bildirmək imkanlarını, hesabatlılıq isə parlamentin və icra hakimiyyətinin ictimai nəzarətə açıq olmasını nəzərdə tutur.

Beethamın yanaşmasında xüsusilə mühüm məqam ondan ibarətdir ki, parlamentin effektivliyi yalnız qəbul edilən qanunların sayı ilə ölçülmür. Effektiv parlament həm də icra hakimiyyətini sorğular, dinləmələr, komitə fəaliyyəti və büdcə nəzarəti vasitəsilə məsuliyyətə cəlb etmək imkanına malik olmalıdır [16]. Bu baxımdan qanunvericilik orqanının funksional bütövlüyü onun qanun qəbul etmək səlahiyyəti ilə yanaşı, icra hakimiyyəti üzərində real nəzarət mexanizmlərinə malik olmasından da asılıdır.

3. Parlament nəzarətinin institusionallaşdırılması: müqayisəli perspektiv

3.1. Almaniya modeli: Əsas Qanunun 44-cü maddəsi və parlament istintaqı

Almaniya Federativ Respublikasının konstitusion modeli parlament nəzarətinin institusional cəhətdən güclü təmin edildiyi nümunələrdən biri kimi qiymətləndirilə bilər. Almaniya Əsas Qanununun 44-cü maddəsinə əsasən, Bundestaq istintaq komitəsi – Untersuchungsausschuss – yaratmaq hüququna malikdir və üzvlərinin dörddə birinin tələbi olduqda belə komitənin yaradılması məcburi xarakter daşıyır [21, maddə 44]. Bu mexanizmin əsas əhəmiyyəti ondan ibarətdir ki, parlament nəzarəti yalnız hakim çoxluğun siyasi iradəsindən asılı olmur. Parlament azlığı da müəyyən məsələlərin araşdırılması təşəbbüsü ilə çıxış edə və icra hakimiyyəti üzərində nəzarət funksiyasının həyata keçirilməsinə təsir göstərə bilir.

Bu institut qanunvericilik orqanının funksional bütövlüyü baxımından xüsusi əhəmiyyət daşıyır. Əgər parlament nəzarəti yalnız hakim çoxluğun razılığı ilə mümkün olarsa, icra hakimiyyətinin fəaliyyətinin obyektiv araşdırılması çətinləşə bilər. Alman modelində isə azlığın istintaq təşəbbüsü hüququ parlament nəzarətini siyasi məqsədəuyğunluq səviyyəsindən çıxararaq konstitusion təminat səviyyəsinə qaldırır.

Bu mexanizmin praktik əhəmiyyəti Federal Konstitusiya Məhkəməsinin 13 oktyabr 2016-cı il tarixli qərarında da özünü göstərmişdir. Həmin qərarda parlament istintaq komitəsinin məlumat əldə etmək və sübutların təqdim olunmasını tələb etmək səlahiyyətləri konstitusion nəzarət mexanizmi kontekstində qiymətləndirilmişdir [17]. Alman konstitusiya hüququ üzrə tədqiqatlarda da bu model parlament nəzarətinin məhkəmə tərəfindən müdafiə oluna bilən hüquqi mexanizmə çevrilməsi kimi izah olunur [26]. Buna görə də Almaniya modelində parlament nəzarəti yalnız siyasi praktika deyil, həm də konstitusion hüquq institutu kimi çıxış edir.

3.2. Birləşmiş Krallıq modeli: komitə nəzarəti və Vestminster ənənəsi

Birləşmiş Krallıqda parlament nəzarəti əsasən Vestminster modelinin institusional xüsusiyyətləri çərçivəsində formalaşmışdır. Bu sistemdə İcmalar Palatasının komitələri icra hakimiyyətinin fəaliyyətini izləmək, dövlət siyasətinin ayrı-ayrı sahələrini araşdırmaq, dinləmələr keçirmək və hesabatlar hazırlamaq vasitəsilə parlament nəzarətinin mühüm aləti kimi çıxış edir. Klassik Vestminster ənənəsində parlamentin əsas funksiyası yalnız qanun qəbul etməkdən ibarət deyil; o, həm də hökumətin fəaliyyətini ictimai müzakirə və siyasi məsuliyyət mexanizmləri vasitəsilə nəzarətdə saxlamalıdır [15].

Bu model Almaniya sistemindən fərqli olaraq azlığın məcburi istintaq komitəsi yaratmaq hüququna deyil, daha çox parlament komitələrinin siyasi və prosedur imkanlarına əsaslanır. Bununla belə, hər iki modeldə ortaq cəhət ondan ibarətdir ki, parlament nəzarətinin effektivliyi yalnız konstitusion mətndə nəzərdə tutulmuş formal səlahiyyətlərdən deyil, həmin səlahiyyətlərin institusional mexanizmlər vasitəsilə həyata keçirilməsi imkanlarından asılıdır.

Demokratik parlament meyarları baxımından komitə nəzarəti parlamentin hesabatlılıq və effektivlik funksiyalarını gücləndirir. Beethamın yanaşmasına görə, demokratik parlamentin effektivliyi yalnız qəbul edilən qanunların sayı ilə deyil, icra hakimiyyətini sorğular, dinləmələr, komitə fəaliyyəti və büdcə nəzarəti vasitəsilə məsuliyyətə cəlb etmək qabiliyyəti ilə ölçülməlidir [16]. Bu baxımdan Birləşmiş Krallıq modeli parlament nəzarətinin siyasi məsuliyyət və açıq müzakirə mexanizmləri üzərində qurulan formasını nümayiş etdirir.

3.3. Azərbaycan modeli: deputat sorğusu və komitə sistemi

Azərbaycan Respublikasının Milli Məclisi birpalatalı qanunvericilik orqanı kimi qanunyaratma, təmsilçilik və nəzarət funksiyalarını həyata keçirir. Azərbaycan Respublikasının qanunvericiliyində deputat sorğusu parlament nəzarətinin mühüm vasitələrindən biri kimi nəzərdə tutulmuşdur. "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, deputat dövlət orqanlarına, idarə, müəssisə və təşkilatlara, habelə vəzifəli şəxslərə sorğu ilə müraciət etmək hüququna malikdir [2, maddə 10].

Deputat sorğusu parlament nəzarətinin fərdi formada həyata keçirilməsinə imkan verir. Lakin bu mexanizm Almaniya modelində mövcud olan azlıq tərəfindən yaradılan məcburi istintaq komitəsi ilə eyni funksional gücə malik deyil. Deputat sorğusu əsasən məlumat tələb etmə vasitəsi kimi çıxış edir; o, kollegial istintaq aparmaq, şahidlərin dinlənilməsini təmin etmək və ya sənədlərin məcburi qaydada təqdim olunmasını tələb etmək baxımından daha məhdud mexanizmdir. Buna görə də Azərbaycan modelində parlament nəzarəti daha çox fərdi deputat təşəbbüsləri və komitə fəaliyyəti vasitəsilə həyata keçirilir.

Milli Məclisin komitə sistemi qanunvericilik prosesinin təşkilində mühüm rol oynayır. Qanun layihələrinin müzakirəsi, onların plenar iclasa hazırlanması və ayrı-ayrı sahələr üzrə ilkin qiymətləndirilməsi komitə fəaliyyəti vasitəsilə həyata keçirilir [1]. Bununla belə, komitə sisteminin parlament nəzarəti baxımından effektivliyi yalnız onun mövcudluğu ilə deyil, icra hakimiyyəti üzərində real və davamlı nəzarət imkanları ilə ölçülməlidir.

Müqayisəli baxımdan Azərbaycan modelinin əsas fərqi ondan ibarətdir ki, burada parlament nəzarətinin azlıq təşəbbüsü əsasında məcburi istintaq formasında həyata keçirilməsi ayrıca konstitusion mexanizm kimi nəzərdə tutulmamışdır. Almaniya Əsas Qanununun 44-cü maddəsi ilə müqayisədə Azərbaycan Respublikasının Konstitusiyasında parlament azlığının məcburi istintaq komitəsi yaratmaq hüququna uyğun gələn ayrıca institut mövcud deyil [3; 21, maddə 44]. Bu isə Beethamın hesabatlılıq meyarı baxımından parlament nəzarətinin daha zəif institusionallaşması kimi qiymətləndirilə bilər [16].

Beləliklə, Azərbaycan Respublikasında qanunvericilik orqanının funksional bütövlüyünün gücləndirilməsi üçün parlament nəzarətinin yalnız fərdi deputat sorğusu və ümumi komitə fəaliyyəti ilə məhdudlaşmaması, daha sistemli və prosedur baxımından təminatlı mexanizmlərlə dəstəklənməsi mühüm əhəmiyyət daşıyır. Bu istiqamətdə parlament azlığının nəzarət təşəbbüslərinin gücləndirilməsi, komitə dinləmələrinin praktik əhəmiyyətinin artırılması və icra hakimiyyəti orqanlarının parlament qarşısında

hesabatlılığının daha aydın prosedurlarla təmin edilməsi qanunvericilik orqanının demokratik idarəetmədə funksional rolunu gücləndirə bilər.

4. Azərbaycanda qanunyaradıcılığı prosesinin konstitusion arxitekturası

Azərbaycan Respublikasının konstitusion modeli hakimiyyətlərin bölünməsi prinsipini formal hüquqi əsas kimi təsbit edir. Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinə əsasən, dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil olunur, qanunvericilik, icra və məhkəmə hakimiyyətləri isə öz səlahiyyətləri çərçivəsində qarşılıqlı fəaliyyət göstərir və müstəqildirlər [3, maddə 7]. Konstitusiyanın 130-cu maddəsi isə Konstitusiya Məhkəməsinə dövlət hakimiyyətləri arasında səlahiyyət bölgüsü ilə bağlı məsələlərin həllində mühüm rol verir [3, maddə 130]. Bu müddəalar qanunvericilik hakimiyyətinin konstitusion statusunu müəyyən edir və onun digər hakimiyyət qolları ilə münasibətlərinin hüquqi çərçivəsini formalaşdırır.

Qanunyaradıcılığı prosesinin prosedur əsasları Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsində müəyyən edilmişdir. Daxili Nizamnaməyə əsasən, qanun layihələri Milli Məclisdə, bir qayda olaraq, üç oxunuş prosedurundan keçir. Birinci oxunuşda qanun layihəsinin ümumi konsepsiyası və qəbul edilməsinin zəruriliyi müzakirə olunur, ikinci oxunuşda layihə daha ətraflı müzakirə edilir və ona dəyişikliklər təklif oluna bilər, üçüncü oxunuşda isə qanun layihəsi yekun formada qəbul edilir [1, maddələr 17, 19, 20]. Bu prosedur qanunvericilik prosesinin mərhələli, müzakirəyə əsaslanan və formal baxımdan nizamlanmış xarakter daşıdığını göstərir.

Konstitusiyanın 94-cü maddəsi yalnız qanunla tənzimlənməli olan məsələlərin dairəsini müəyyən etməklə qanunvericilik hakimiyyətinin predmet səlahiyyətlərini konkretləşdirir. Bu maddədə insan və vətəndaş hüquq və azadlıqları, seçkilər, referendum, dövlət orqanlarının təşkili, mülkiyyət hüququ, ailə münasibətləri, cinayət məsuliyyəti və digər mühüm ictimai münasibətlər qanunla tənzimlənməli məsələlər sırasında göstərilir [3, maddə 94]. Bu baxımdan Konstitusiya qanunvericilik orqanına ictimai həyatın əsas sahələrini hüquqi tənzimləmə səlahiyyəti verir.

Eyni zamanda, Konstitusiyanın 94-cü maddəsinin II hissəsində bəzi qanunların qəbul edilməsi üçün daha yüksək səs çoxluğu nəzərdə tutulur. Seçkilər, referendum, deputatların statusu və digər xüsusi əhəmiyyətli məsələlər üzrə qanunlar 83 səs çoxluğu ilə, digər qanunlar isə 63 səs çoxluğu ilə qəbul edilir [3, maddə 94, hissə II]. Bu mexanizm demokratik prosesin əsas qaydalarının sadə çoxluqla asanlıqla dəyişdirilməsinin qarşısını almağa xidmət edir və qanunvericilik prosesində hüquqi sabitlik elementini gücləndirir.

Milli Məclisin səlahiyyətləri yalnız qanun qəbul etməklə məhdudlaşmır. Konstitusiyanın 95-ci maddəsində dövlət büdcəsinin təsdiqi, Baş nazirin təyin edilməsinə razılıq verilməsi, məhkəmə hakimiyyəti orqanlarının formalaşdırılmasında iştirak və digər mühüm məsələlər Milli Məclisin səlahiyyətləri sırasında göstərilmişdir [3, maddə 95]. Bu səlahiyyətlər parlamentin demokratik idarəetmədə yalnız normayaratma subyekti deyil, həm də dövlət hakimiyyətinin ümumi balansında iştirak edən konstitusion institut olduğunu göstərir.

Qanunların qəbulundan sonrakı mərhələ isə Konstitusiyanın 97 və 110-cu maddələri ilə tənzimlənir. Qəbul edilmiş qanunlar imzalanmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim olunur. Prezident qanunu imzalaya və ya öz etirazları ilə Milli Məclisə qaytara bilər [3, maddələr 97, 110]. Konstitusiyanın 110-cu maddəsində Prezidentin etirazı ilə qaytarılmış qanunların Milli Məclis tərəfindən yenidən qəbul edilməsi qaydası da müəyyən edilmişdir.

Belə ki, 83 səs çoxluğu ilə qəbul edilmiş qanun 95 səs çoxluğu ilə, 63 səs çoxluğu ilə qəbul edilmiş qanun isə 83 səs çoxluğu ilə yenidən qəbul edildikdə qüvvəyə minir [3, maddə 110].

Bu mexanizm qanunvericilik və icra hakimiyyətləri arasında qarşılıqlı balansın konstitusion ifadəsi kimi qiymətləndirilə bilər. Müqayisəli baxımdan o, ABŞ Konstitusiyasının I maddəsinin 7-ci bölməsində nəzərdə tutulan prezident vetosunun aradan qaldırılması proseduru ilə müəyyən funksional oxşarlıq daşıyır [31, Article I, Section 7]. Hər iki halda qanunvericilik orqanına icra hakimiyyətinin etirazını müəyyən edilmiş yüksək səs çoxluğu vasitəsilə dəf etmək imkanı verilir.

Bununla belə, Azərbaycan modelində qanunvericilik orqanının funksional bütövlüyünün qiymətləndirilməsi yalnız qanunların qəbul edilməsi və Prezidentin etirazının aradan qaldırılması mexanizmi ilə məhdudlaşmamalıdır. Waldronun funksional bütövlük yanaşması baxımından əsas məsələ parlamentin öz konstitusion funksiyasını real, müstəqil və prosedur baxımından qorunan formada həyata keçirə bilməsidir [32]. Bu mənada Azərbaycan Respublikasında qanunyaradıcılığı prosesinin normativ əsasları mövcud olsa da, qanunvericilik hakimiyyətinin demokratik keyfiyyəti həmin prosedurların praktik işləkliyi, parlament müzakirələrinin real təsiri və icra hakimiyyəti üzərində nəzarət imkanları ilə birlikdə qiymətləndirilməlidir.

5. Postsovet məkanında parlament hakimiyyətinin müqayisəli xüsusiyyətləri

Qanunvericilik hakimiyyətinin funksional bütövlüyünün qiymətləndirilməsi üçün yalnız konstitusiya normalarının təhlili kifayət etmir. Parlamentin real rolu onun qanunvericilik, büdcə, nəzarət və hesabatlılıq funksiyalarını praktikada hansı səviyyədə həyata keçirməsindən asılıdır. Müqayisəli institusional tədqiqatlarda qanunverici orqanların faktiki səlahiyyətləri ilə siyasi rejimin demokratik xarakteri arasında mühüm əlaqənin mövcudluğu göstərilir [34]. Bu baxımdan postsovet dövlətlərinin təcrübəsi hakimiyyətlərin bölünməsi prinsipinin formal şəkildə tanınması ilə parlamentin real funksional gücü arasında fərq ola biləcəyini nümayiş etdirir.

Postsovet məkanında parlament institutlarının inkişafı vahid istiqamətdə baş verməmişdir. Tacikistan və Qırğızıstan nümunələrində icra hakimiyyətinin siyasi sistemdə aparıcı mövqeyi parlamentin nəzarət və qərarvermə imkanlarını məhdudlaşdıran amil kimi çıxış edir [6; 11]. Bunun əksinə olaraq, Özbəkistanda 2023-cü il konstitusiya islahatı, Qazaxıstanda isə 2007, 2017 və 2022-ci illərdə aparılmış konstitusion dəyişikliklər parlamentin funksional rolunun gücləndirilməsi istiqamətində müəyyən meyilləri göstərir [9; 10].

Müqayisəli təhlil üçün postsovet məkanı ilə yanaşı digər parlamentarizm modellərinə müraciət etmək də faydalıdır. Çex Respublikasında ikipalatalı parlament sistemi və hökumətə etimad mexanizmi icra hakimiyyəti üzərində parlament nəzarətinin mühüm elementi kimi çıxış edir [7]. İspaniya nümunəsində isə parlamentin strukturu və qanunvericilik təşəbbüsü mexanizmləri qanunvericilik prosesində müxtəlif institutların iştirakını təmin edən model kimi qiymətləndirilə bilər [12]. Spektrin digər ucunda Koreya Xalq Demokratik Respublikasının modeli dayanır: burada ali dövlət hakimiyyəti orqanı kimi təqdim edilən parlamentin real qanunvericilik və nəzarət imkanları siyasi sistemin xüsusiyyətləri ilə ciddi şəkildə məhdudlaşır [4].

Bu nümunələr göstərir ki, parlamentin demokratik mahiyyəti yalnız onun konstitusiyada "qanunverici orqan" kimi tanınması ilə müəyyən edilə bilməz. Əsas məsələ parlamentin real siyasi rəqabət, açıq müzakirə, icra hakimiyyəti üzərində nəzarət və hesabatlılıq mexanizmləri vasitəsilə fəaliyyət göstərə bilməsidir. Beethamın demokratik parlament meyarları baxımından parlamentin keyfiyyəti onun təmsilçilik,

şəffaflıq, əlçatanlıq, hesabatlılıq və effektivlik funksiyalarını real şəkildə həyata keçirməsi ilə ölçülməlidir [16].

Beləliklə, müqayisəli təcrübə Azərbaycan Respublikası üçün də mühüm nəticə ortaya qoyur: Milli Məclisin demokratik idarəetmədə funksional rolunun gücləndirilməsi yalnız normativ səlahiyyətlərin mövcudluğu ilə deyil, həmin səlahiyyətlərin praktik və institusional təminatları ilə bağlıdır.

6. İnstitusional dizayn və Hayekin "Nomothetae" konsepsiyası

Qanunvericilik orqanının funksional bütövlüyü yalnız mövcud parlament prosedurlarının təkmilləşdirilməsi ilə deyil, bəzi hallarda qanunvericilik institutunun öz strukturunun yenidən nəzərdən keçirilməsi ilə də əlaqələndirilir. Bu baxımdan Fridrix Hayekin "Nomothetae" konsepsiyası qanunvericilik hakimiyyətinin institusional dizaynı haqqında fərqli nəzəri yanaşma təqdim edir.

Hayekin yanaşmasına görə, müasir parlamentlərin əsas struktur problemlərindən biri ümumi, mücərrəd və uzunmüddətli hüquq qaydalarının müəyyən edilməsi funksiyası ilə gündəlik idarəetmə və konkret siyasi qərarların qəbul edilməsi funksiyasının eyni orqanda cəmləşməsidir. Bu vəziyyət ümumi hüquqi prinsiplərin qısamüddətli siyasi maraqların təsiri altına düşməsi riskini yaradır və qanunun aliliyi prinsipinin zəifləməsinə səbəb ola bilər [8].

Bu problemin həlli kimi Hayek xüsusi nümayəndəli qanunvericilik orqanının – "Nomothetae"nin yaradılmasını təklif etmişdir. Bu orqan gündəlik siyasi rəqabətdən və partiya maraqlarından müəyyən dərəcədə təcrid olunmalı, əsasən ümumi və abstrakt hüquq qaydalarının formalaşdırılması ilə məşğul olmalı idi [8]. Hayekin təklifi praktiki konstitusiya modelinə çevrilməsə də, qanunvericilik hakimiyyətinin funksional bütövlüyü haqqında mühüm nəzəri nəticə çıxarmağa imkan verir: parlamentin demokratik keyfiyyəti yalnız onun seçkili orqan olması ilə deyil, həm də onun hansı funksiyaları hansı institusional mexanizmlərlə həyata keçirməsi ilə müəyyən olunur.

Bu baxımdan "Nomothetae" konsepsiyası Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətinin təhlili üçün də dolayı nəzəri əhəmiyyət daşıyır. Bu konsepsiya göstərir ki, qanunvericilik prosesinin keyfiyyəti yalnız normativ səlahiyyətlərin mövcudluğu ilə deyil, həm də qanunverici orqanın həmin səlahiyyətləri ümumi hüquqi prinsiplər, ictimai maraq və uzunmüddətli institusional sabitlik əsasında həyata keçirə bilməsi ilə bağlıdır. Buna görə də qanunvericilik orqanının funksional bütövlüyü məsələsi təkcə parlament nəzarəti və deputat sorğusu ilə məhdudlaşmır; o, həm də qanunvericilik prosesinin institusional dizaynı, siyasi təsirlərdən nisbi müstəqilliyi və hüququn ümumi prinsiplərinə bağlılığı ilə əlaqəlidir.

Nəticə

Aparılmış təhlil göstərir ki, hakimiyyətlərin bölünməsi prinsipinin konstitusion səviyyədə təsbit olunması demokratik idarəetmə üçün zəruri olsa da, qanunvericilik orqanının real və effektiv fəaliyyəti üçün təkbaşına kifayət etmir. Qanunvericilik hakimiyyətinin demokratik keyfiyyəti onun formal hüquqi statusu ilə yanaşı, qanunyaratma, təmsilçilik, parlament nəzarəti və hesabatlılıq funksiyalarını praktikada həyata keçirmək imkanları ilə müəyyən olunur.

Azərbaycan Respublikasının konstitusion modeli qanunvericilik hakimiyyətinin normativ əsaslarını müəyyən edir. Milli Məclisin qanunyaratma səlahiyyəti, qanun layihələrinin mərhələli müzakirəsi, səs çoxluğu tələbləri və Prezidentin etirazı ilə qaytarılmış qanunların yenidən qəbul edilməsi mexanizmi qanunvericilik prosesinin hüquqi baxımdan strukturlaşdırılmış olduğunu göstərir [1; 3]. Bununla belə, qanunvericilik orqanının funksional bütövlüyü yalnız qanunların qəbul edilməsi proseduru ilə deyil, həm də

parlamentin icra hakimiyyəti üzərində real, davamlı və prosedur baxımından təminatlı nəzarət imkanları ilə qiymətləndirilməlidir.

Müqayisəli təhlil göstərir ki, Almaniya modelində parlament azlığının istintaq komitəsinin yaradılmasını tələb etmək hüququ parlament nəzarətini hakim çoxluğun siyasi iradəsindən müəyyən dərəcədə asılılıqdan çıxarır [21, maddə 44]. Birləşmiş Krallıq modelində isə komitə sistemi və açıq parlament müzakirələri hökumətin fəaliyyətinə siyasi nəzarətin əsas vasitələrindən biri kimi çıxış edir [15; 16]. Azərbaycan Respublikasında deputat sorğusu və komitə sistemi parlament nəzarətinin mühüm mexanizmləri olsa da, bu mexanizmlərin funksional təsirinin daha da gücləndirilməsi demokratik idarəetmənin keyfiyyəti baxımından əhəmiyyətlidir [2; 16].

Tədqiqatın elmi yeniliyi qanunvericilik orqanının demokratik idarəetmədə rolunun yalnız hakimiyyətlərin bölünməsi prinsipinin formal tanınması ilə deyil, qanunvericilik hakimiyyətinin funksional bütövlüyü meyarı əsasında qiymətləndirilməsindən ibarətdir. Bu yanaşma parlamentin konstitusion statusunu onun real normayaratma imkanları, icra hakimiyyəti üzərində nəzarət mexanizmləri, ictimai müzakirə funksiyası və hesabatlılıq institutlarının işləkliyi ilə birlikdə təhlil etməyə imkan verir [16; 32].

Tədqiqatın tətbiqi əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycan Respublikasında qanunvericilik orqanının funksional rolunun gücləndirilməsi üçün parlament nəzarətinin daha sistemli və prosedur baxımından təminatlı mexanizmlərlə inkişaf etdirilməsi zəruridir. Bu istiqamətdə deputat sorğusu institutunun praktik təsirinin artırılması, komitə dinləmələrinin və hesabatlılıq prosedurlarının gücləndirilməsi, habelə parlament azlığının nəzarət təşəbbüsləri üçün daha aydın hüquqi təminatların müəyyən edilməsi məqsədəuyğun hesab edilə bilər.

Beləliklə, qanunvericilik orqanının funksional bütövlüyü demokratik idarəetmənin mühüm göstəricilərindən biridir. Parlamentin demokratik rolu yalnız qanun qəbul etməsi ilə məhdudlaşmır; o, ictimai maraqları təmsil etməli, icra hakimiyyətini hesabatlı saxlamalı və hüquqi dövlət prinsipinin institusional təminatçılarından biri kimi çıxış etməlidir.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi. 17 may 1996-cı il, № 74-IQ.

2. "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikasının Qanunu. 17 may 1996-cı il.

3. Azərbaycan Respublikasının Konstitusiyası. 12 noyabr 1995-ci il.

4. Базина О.О., Ким Э.У. Конституционное развитие Корейской Народно-Демократической Республики сквозь призму конституционных изменений // Siberian Law Review. 2026. Т. 23, № 2. С. 221–233. DOI: 10.19073/2658-7602-2026-23-2-221-233.

5. Зуев О.Е. Институциональные основания народного представительства: критика парламентской исключительности // Электронный научный журнал «Наука. Общество. Государство». 2026. Т. 14, № 1. С. 43–52. DOI: 10.21685/2307-9525-2026-14-1-5.

6. Мамасаидов А.М. Особенности конституционно-правового статуса органов исполнительной власти в зарубежных странах // International Journal of Humanities and Natural Sciences. 2025. № 8(107). С. 354–358. DOI: 10.24412/2500-1000-2025-8-354-358.

7. Павлов Е.Я., Ракитская И.А. Правовая государственность Чешской Республики: современный этап // Обозреватель–Observer. 2023. № 2. С. 118–134. DOI: 10.48137/2074-2975_2023_2_118.

8. Рааб Р.С. Nomothetae: проект конституционной реформы Фридриха Хайека // Вестник РУДН. Серия: Юридические науки. 2022. Т. 26, № 2. С. 348–368. DOI: 10.22363/2313-2337-2022-26-2-348-368.

9. Рустамбеков И.Р., Гулямов С.С., Аминев Ф.Г. Конституционная модель узбекского государства: от суверенитета к цифровой трансформации в эпоху «Нового Узбекистана» // Правовое государство: теория и практика. 2025. Т. 21, № 4(82). С. 45–58. DOI: 10.33184/pravgos-2025.4.5.

10. Саулен Н. Институт парламентаризма в контексте конституционной реформы Казахстана // Вестник Московского университета. Серия 11. Право. 2023. № 2. С. 129–147. DOI: 10.55959/MSU0130-0113-11-64-2-8.

11. Хадыров Р.Ю. Институциональная модель политической системы Таджикистана: иерархия и специфика институтов // Международные отношения. 2023. № 1. С. 12–19. DOI: 10.7256/2454-0641.2023.1.39684.

12. Шутурова Х.М.-Б. Парламент Испании: структура и роль в государстве // Образование и право. 2023. № 8. С. 499–503. DOI: 10.24412/2076-1503-2023-8-499-503.

13. Achenbach J. von. Separation of powers and the role of political theory in contemporary democracies // International Journal of Constitutional Law. 2017. Vol. 15, No. 3. pp. 861–865. DOI: 10.1093/icon/mox072.

14. Arato A. The Adventures of the Constituent Power: Beyond Revolutions? Cambridge: Cambridge University Press, 2017.

15. Bagehot W. The English Constitution / ed. by P. Smith. Cambridge: Cambridge University Press, 2001. 253 p.

16. Beetham D. Parliament and Democracy in the Twenty-First Century: A Guide to Good Practice. Geneva: Inter-Parliamentary Union, 2006. 215 p.

17. Bundesverfassungsgericht. Order of 13 October 2016, 2 BvE 2/15.

18. Chambers S. Deliberative Democracy and the Digital Public Sphere: Asymmetrical Fragmentation as a Political not a Technological Problem // Constellations. 2023. Vol. 30, No. 1. pp. 61–68. DOI: 10.1111/1467-8675.12662.

19. Glassman M.E. Separation of Powers: An Overview. CRS Report No. R44334. Washington, D.C.: Congressional Research Service, 2016. 20 p.

20. Dahl R.A. Polyarchy: Participation and Opposition. New Haven: Yale University Press, 1971. 257 p.

21. Grundgesetz für die Bundesrepublik Deutschland. 1949. Art. 44.

22. Habermas J. Between Facts and Norms: Contributions to a Discourse Theory of Law and Democracy / trans. by W. Rehg. Cambridge, MA: MIT Press, 1996. 631 p.

23. Hamilton A., Madison J., Jay J. The Federalist: With Letters of Brutus / ed. by T. Ball. Cambridge: Cambridge University Press, 2003. 575 p.

24. Hart H.L.A. The Concept of Law. Oxford: Clarendon Press, 1961. 263 p.

25. Kelsen H. Pure Theory of Law / trans. by M. Knight. Berkeley: University of California Press, 1967. 356 p.

26. Kommers D.P., Miller R.A. The Constitutional Jurisprudence of the Federal Republic of Germany. 3rd ed. Durham: Duke University Press, 2012. 904 p.

27. Locke J. Two Treatises of Government / ed. by P. Laslett. Cambridge: Cambridge University Press, 1988. 478 p.

28. Montesquieu C. The Spirit of the Laws / ed. and trans. by A.M. Cohler, B.C. Miller, H.S. Stone. Cambridge: Cambridge University Press, 1989. 808 p.

29. Roznai Y. Unconstitutional Constitutional Amendments: The Limits of Amendment Powers. Oxford: Oxford University Press, 2017. 368 p.

30. Sieyès E.-J. Qu'est-ce que le Tiers-État? 1789.

31. United States Constitution. 1789. Article I, Section 7.

32. Waldron J. Separation of Powers in Thought and Practice? // Boston College Law Review. 2013. Vol. 54, No. 2. pp. 433–468.

33. Waldron J. Political Political Theory: Essays on Institutions. Cambridge, MA: Harvard University Press, 2016. DOI: 10.4159/9780674970342.

34. Wilson M.C., Woldense J. Contested or Established? A Comparison of Legislative Powers across Regimes // Democratization. 2019. Vol. 26, No. 4. pp. 585–605. DOI: 10.1080/13510347.2018.1564282.

Мамедзаде Турал Зия оглу,
докторант Национальной авиационной академии

ФУНКЦИОНАЛЬНАЯ ЦЕЛОСТНОСТЬ ЗАКОНОДАТЕЛЬНОГО ОРГАНА В ДЕМОКРАТИЧЕСКОМ УПРАВЛЕНИИ: НА ПРИМЕРЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

РЕЗЮМЕ

В статье исследуется функциональная целостность законодательного органа в системе демократического управления на примере Азербайджанской Республики с точки зрения конституционного и сравнительного права. Основная цель исследования заключается в обосновании необходимости оценки принципа разделения властей не только как формальной конституционной декларации, но и в связи с реальными институциональными возможностями законодательного органа, его нормотворческими полномочиями и контрольной функцией в отношении исполнительной власти. В статье на основе классических теорий разделения властей, подходов к юридической действительности и современных критериев демократического парламентаризма анализируются основные элементы, определяющие функциональную целостность законодательной власти. Сравнительный анализ проводится на фоне опыта Германии, Великобритании и ряда постсоветских государств с особым акцентом на конституционную модель Азербайджанской Республики. Научная новизна исследования состоит в обосновании того, что демократическое качество законодательного органа должно измеряться не только его формальными полномочиями, но и практической реализацией этих полномочий, эффективностью парламентского контроля и степенью институционализации механизмов подотчётности. В статье делается вывод о том, что, несмотря на наличие нормативных основ законодательного процесса в Азербайджанской Республике, функциональное усиление парламентского контроля, в частности дальнейшее развитие процедурных гарантий, связанных с депутатским запросом, комитетским контролем и контрольными инициативами парламентского меньшинства, имеет существенное значение для повышения качества демократического управления.

Mammadzada Tural Ziya,
Doctoral student at the National Aviation Academy

THE FUNCTIONAL INTEGRITY OF THE LEGISLATURE IN DEMOCRATIC GOVERNANCE: THE CASE OF THE REPUBLIC OF AZERBAIJAN

SUMMARY

The article examines the functional integrity of the legislature in a system of democratic governance through the example of the Republic of Azerbaijan from the perspectives of constitutional and comparative law. The main purpose of the study is to substantiate the need to assess the principle of separation of powers not merely as a formal constitutional declaration, but in connection with the real institutional capacity of the legislature, its law-making authority, and its oversight function over the executive power. The article analyzes the key elements determining the functional integrity of legislative power on the basis of classical theories of separation of powers, approaches to legal validity, and modern criteria of democratic parliamentarism. The comparative analysis is conducted with reference to the experience of Germany, the United Kingdom, and several post-Soviet states, with particular emphasis on the constitutional model of the Republic of Azerbaijan. The scientific novelty of the study lies in substantiating that the democratic quality of the legislature should be measured not only by its formal powers, but also by the practical implementation of those powers, the effectiveness of parliamentary oversight, and the level of institutionalization of accountability mechanisms. The article concludes that although the normative foundations of the legislative process exist in the Republic of Azerbaijan, the functional strengthening of parliamentary oversight, particularly through the further development of procedural guarantees relating to deputy inquiries, committee oversight, and oversight initiatives of the parliamentary minority, is of significant importance for improving the quality of democratic governance.

Redaksiyaya daxilolma tarixi: 08.09.2026
Təkrar işlənməyə göndərilmə tarixi: 15.09.2026
Çapa qəbul olunma tarixi: 16.09.2026